Üç ay yarım davam edən yarışmanın final oyununda iki seçim və iki final görüşü keçirilib. İlk seçim görüşündə sentyabr ayının qalibi "Kapital bank" komandası ilə oktyabr ayının qalibi "Nar Mobile" komandası qarşılaşıblar. Maraqlı və gərgin keçən mübarizədə "Nar Mobile" qalib gəlib. Sonra "Nar Mobile" komandası öz seçiminə əsasən, "Azərbaycan klubu" ilə oynayıb və qələbə qazanıb.

Final görüşlərində "Nar Mobile" və "Romantik qüvvələrini sınayıblar. "Romantik" komandası hər iki görüşün və ikinci mövsümün qalibi, eləcə də "Bilik kuboku"nun sahibi olub.

Qalib komandaya Təhsil Nazirliyi tərəfindən elekton kitab oxuyucusu, sponsorlar tərəfindən 3 min manat mükafat təqdim edilib.

Xatırladaq ki, "Bilik kuboku" uğrunda yarışın oyunları "Baku Crystal Hall"da keçirilib və AzTV kanalı ilə yayımlanıb. Yarışlarda ölkəmizin 15 bölgəsini təmsil edən 30 komanda iştirak edib.